**Deloitte vergi və mühasibatlıq bülleteni**
Noyabr, 2023



# Deloitte vergi və mühasibatlıq bülleteni

## Xəbərlər

- **Bir sıra bəyannamə, onların əlavə formaları və tərtib olunması qaydaları təsdiq edilib:** İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən bəzi bəyannamə, həmin bəyannamələrə əlavələrin formaları və tərtib olunması qaydalarında müvafiq dəyişikliklər təsdiq edilib. Yeni redaksiyada təsdiq edilmiş bəyannamə formaları aşağıdakılardır:

  – “Dövlət rüsumunun tutulması haqqında hesabat”ın tərtib edilməsi Qaydası;
  – “Əlavə dəyər vergisinin bəyannaməsinə əlavə №5-in” tərtib edilməsi Qaydası;
  – “Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulmalar üzrə vahid bəyannamənin (hesabat)”ın tərtib edilməsi Qaydası;
  – “Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulmalar üzrə vahid bəyannaməyə (hesabata) əlavə №1-in (İşçilər (sığortaolunanlar) barədə məlumatın)” tərtib edilməsi Qaydası.

Bəyannamə (hesabat) formaları və doldurulma qaydaları ilə aşağıdakı link vasitəsilə tanış olmaq mümkündür: https://www.taxes.gov.az/az/page/beyanname-erize-formalari-arayis-hesabat-ve-qerarlar

- **Nəzarət olunan xarici müəssisə haqqında arayışın vergi orqanına təqdim edilmə qaydası dəyişdirilib:** Müəyyən edilmiş yeni qaydalara əsasən, Azərbaycan Respublikasının rezidenti hesab edilən şəxsin vergi tutulan gəliri nəzarət olunan xarici müəssisənin gəlir və xərclərini nəzərə alaraq həmin müəssisədəki payının ümumi paydakı xüsusi çəkisinə (faiz nisbətinə) əsasən hesablanır. Həmçinin, nəzarət olunan xarici müəssisənin rezidenti olduğu ölkələrdə və ya ərazilərdə ödənilən mənfəət (gəlir) vergisi Azərbaycan Respublikasının rezidenti hesab edilən şəxsin nəzarət olunan müəssisədəki payının ümumi paydakı xüsusi çəkisinə (faiz nisbətinə) uyğun olaraq Azərbaycan Respublikasında ödənilməli olan mənfəət (gəlir) vergisindən çıxılır.

Bununla yanaşı, qaydalara “Arayışın təqdim edilmə qaydası və həmin arayışa əlavə edilən sənədlər”, “Valyutanın konvertasiyası”, “Məlumatların məxfiliyi”, “Məlumat mübadiləsinin aparılması”, “Mübahisələrin həlli” maddələri əlavə edilib.

Ətraflı məlumat üçün keçid: https://e-qanun.az/framework/49594

- **İkiqat vergitutmanın aradan qaldırılması barədə saziş layihəsi üzrə danışıqlar keçirilib:** İyulun 11-13 tarixlərində Çin Xalq Respublikasının Honkonq şəhərində "Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikasının Honkonq Xüsusi İnzibati ərazisi arasında gəlirə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş" layihəsi üzrə danışıqların birinci raundu keçirilib.

Ətraflı məlumat üçün keçid: https://www.taxes.gov.az/az/post/2662

- **Sahibkarlar üçün bank hesabının açılması qaydasına dəyişiklik edilib:** Vergi Məcəlləsində edilmiş yeni dəyişikliklərə əsasən, vergi ödəyiciləri vergi uçotuna alındıqdan sonra hesab açmaq üçün bank hesablarını açmaq və aparmaq hüququ olan kredit təşkilatlarına və poçt rabitəsinin milli operatoruna (bundan sonra – bank əməliyyatları aparan şəxslərə) müraciət etdikdə bank əməliyyatları aparan şəxslər vergi ödəyicilərinə hesablar açır (qanunla hesabın açılmasından imtinaya əsas verən hallar nəzərə alınmaqla) və açılmış hesabların (qeyri-rezident üçün sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan açılmış hesablar istisna olmaqla) vergi orqanında qeydiyyata alınması üçün müvafiq məlumatı hesab açıldığı tarixdən 1 iş günü müddətində elektron qaydada vergi orqanına göndərir. Belə ki, bank hesablarının açılması üçün Şəhadətnamə dublikatın tələbi ləğv edilmişdir.

Qeyd olunan dəyişikliklər 1 oktyabr 2023-cü il tarixdən qüvvəyəminmişdir

Ətraflı məlumat üçün keçid: https://e-qanun.az/framework/53080 və https://e-qanun.az/framework/49456

- **İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz"in ("Sabit qəbz") verilməsi üzrə elektron xidməti təkmilləşdirərək istifadəyə verib:** Elektron xidmətdən istifadənin asanlaşdırılması, eyni zamanda vergi ödəyicilərinin məmnunluğunun artırılması məqsədilə müvafiq istifadəçi təlimatları hazırlanıb. Bu istifadəçi təlimatları "Sabit qəbz" əldə etməklə fəaliyyət göstərən vergi ödəyiciləri, torpaq mülkiyyətçiləri və ailə kəndli təsərüffatının başçıları tərəfindən onlayn (real) rejimdə qəbzin alınmasını nəzərdə tutur.

Ətraflı məlumat üçün keçid: https://taxes.gov.az/uploads/2017/sabit/Qebz.pdf

- **Dövlət satınalmalarında iştirak edən sahibkarlara arayışın verilməsi xidməti elektronlaşdırılıb -** Dövlət satınalmalarında iştirak edən sahibkarlar üçün Dövlət Vergi Xidməti tərəfindən təqdim edilən arayışın əldə edilməsi prosesi sadələşdirilib. Artıq bunun üçün sahibkarlar vergi orqanlarına müraciət etməyəcəklər. Sahibkarlar tərəfindən müvafiq arayışın alınmasına dair müraciət bundan sonra yalnız "etender.gov.az" portalı vasitəsilə həyata keçiriləcək.

Ətraflı məlumat üçün keçid: https://etender.gov.az/

- **Fiziki şəxslərin və qurumların dondurulmuş aktivlərdən zəruri və gözlənilməz xərclərə ehtiyacının ödənilməsi qaydalarına dəyişiklik edilib:** Aktivləri dondurulmuş fiziki və ya hüquqi şəxslərin zəruri və gözlənilməz xərclərə ehtiyaclarını ödəmək üçün dondurulmuş aktivlərdən istifadə etmək imkanının təmin edilməsi qaydası qüvvəyə minmişdir.

Ətraflı məlumat üçün keçid: https://nk.gov.az/az/senedler/qerarlar/fiziki-sexslerin-ve-qurumlarin-dondurulmus-aktivle-7401

- **Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi təsdiq edilmişdir:** Belə ki, 52-ci maddədə göstərilən hallar istisna olmaqla, əmək müqaviləsi işçinin peşəkarlıq səviyyəsini və müvafiq əmək funksiyasını icra etmək bacarığını yoxlamaq məqsədilə sınaq müddəti müəyyən edilməklə bağlanıla bilər. Altı ay müddətinədək bağlanılmış əmək müqaviləsində ən çoxu iki həftə, digər əmək müqavilələrində isə ən çoxu üç ay sınaq müddəti müəyyən edilir.

Ətraflı məlumat üçün keçid: https://meclis.gov.az/news-layihe.php?id=2152&lang=az&par=0

- **İdxalı əlavə dəyər vergisindən azad olunan əsas vəsaitlərin Siyahısı** təsdiq edilib.

Ətraflı məlumat üçün keçid: https://e-qanun.az/framework/55130

## Xatırlatma, bu tarixləri unutma!

- **15 noyabr:** Torpaq vergisi üzrə hesabat dövrü təqvim ilidir. İllik torpaq vergisinin qalan hissəsini noyabr ayının 15-dən gec olmayaraq hüquqi şəxslər dövlət büdcəsinə, fiziki şəxslər yerli (bələdiyyə) büdcəyə ödəməlidirlər.
- **31 dekabr:** İri və orta sahibkarlıq subyektlərinin baş mühasibləri tərəfindən peşəkar mühasib sertifikatının əldə edilməsi üçün son tarixdir.
- **31 dekabr:** Vergi ödəyicilərinin vergi orqanı tərəfindən verilən kod-paroldan istifadə etməklə elektron kabinetə daxil olmaq imkanı 2024-cü il yanvarın 1-dən məhdudlaşdırılacaqdır. Həmin tarixdən etibarən elektron kabinetdən yalnız elektron (Asan) imzadan istifadə etməklə yararlanmaq mümkün olacaqdır.

## Bunu bilirdinizmi?

Vergi Məcəlləsinin 122.5-ci maddəsinə əsasən texnologiyalar parkının rezidenti kimi texnologiyalar parkından kənar sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən şəxslər tərəfindən ödənilən dividenddən texnologiyalar parkının qeydiyyat şəhadətnaməsinin alındığı hesabat ilindən başlayaraq 10 il müddətinə ödəmə mənbəyində vergi tutulmur. Sözügedən maddədə təsisçilərin dividend gəlirlərinə müvafiq azadolma hüquqi şəxsin texnologiyalar parkının rezidenti olduğu dövrdə yaranmış mənfəətindən ödənilən dividendlərə tətbiq olunur. Belə ki, müəssisənin 2023-cü ilədək formalaşmış bölüşdürülməmiş mənfəətindən ödənilən dividendlərdən ümumi qaydada vergi tutulmalıdır.

# Tədbirlərimiz və yeniliklərimiz

## Azərbaycan Peşəkar Mühasiblər Klubu

Deloitte Azərbaycan şirkətinin təşəbbüsü ilə yaradılmış Azərbaycan Peşəkar Mühasiblər Klubunun növbəti görüşü 11 oktyabr 2023-cü il tarixində baş tutdu. Görüş İkiqat vergiqoyma və DTA formalarının tətbiqinə həsr edilmişdir. Tədbirin ilk hissəsində Deloitte Azərbaycan şirkətinin Vergi və Hüquq Departamentinin Baş Vergi məsləhətçisi Qasımova Şəhla öz təqdimatında mövcud beynəlxalq vergi sazişləri, DTA formalarının tətbiqi haqqında danışdı. Qonaq məruzəçimiz, Azərbaycan Respublikası Dövlət Vergi xidmətinin Beynəlxalq vergitutma şöbəsinin rəisi Elkin Məmmədov sözügedən mövzu ilə bağlı təcrübədə yaranan çətinliklər və diqqət edilməli məqamları vurğuladı və iştirakçıların suallarını cavablandırdı. O, həmçinin beynəlxalq vergiqoyma qanunvericiliyi və inzibatçılığında baş verən son dəyişikliklər barədə məlumatı paylaşdı.

Qeyd etmək istərdik ki, Azərbaycan Peşəkar Mühasiblər Klubu ölkəmizin aparıcı şirkətlərinin mühasibat uçotu sahəsi üzrə peşəkarlarını bir araya gətirmək, mühasibatlıq, vergi qanunvericiliyi audit və digər əlaqəli sahələr üzrə fikir mübadiləsi aparmaq, mühasibləri maarifləndirmək məqsədlərini daşıyır.






# Xidmətlərimiz

## Vergi Məsləhətləri

1. Vergi öhdəliklərin yoxlanılması
2. Dövlət vergi orqanları tərəfindən keçirilən yoxlama zamanı dəstək
3. Yerli və beynəlxalq vergitutma ilə bağlı məsləhət xidmətləri
4. Transfer qiymətləndirmə ilə bağlı xidmətlər

## Biznes Proseslərin həlli

**1. Maliyyə Evi**

- Mühasibatlıq
- Vergi hesabatlığı
- Maliyyə nəzarəti

**2. Texnologiya və Robototexnika Mərkəzi**

Proqram təminatı vasitəsilə müxtəlif növ yüksək həcmli, daimi təkrarlanan əməliyyatların, robotlar tərəfindən qısa bir zamanda və səhvsiz icrası. Maliyyə və mühasibatlıq proqramının seçimi, texniki tapşırıqların yazılması, və sınaq dövründə dəstək.

**3. Əmək haqqı hesablanması**

Əmək haqqının hesablanması, əmək qanunvericiliyi üzrə məsləhət xidmətləri, xarici işçilər üçün yerli vergi qanunvericiliyi üzrə məlumatlandırma sessiyalarının keçirilməsi, əmək haqqı sisteminin qurulması və s.



# Bizim Komanda:

### Vergi məsləhətləri



**Nuran Kərimov**
**İdarəedici Partnyor**
Tel: +994 (12) 404 12 10
Email: nkerimov@deloitte.az



**Nərmin Aslanova**
**Vergi üzrə Partnyor**
Tel: +994 (12) 404 12 10
Email: naslanova@deloitte.az

### Biznes proseslərin həlli



**Rəna Xəlilova**
**Vergi üzrə Direktor**
Tel: +994 (12) 404 12 10
Email: rkhalilova@deloitte.az

Deloitte adı Deloitte Touche Tohmatsu Limited şəbəkəsinə daxil olan üzv şirkətlərdən birinə vəya bir neçəsinə və əlaqədar müəssisələrinə aid ola bilər. DTTL ("Deloitte Qlobal") və bu şəbəkəyə daxil olan hər bir üzv şirkət ayrı-ayrılıqda hüquqi şəxslər və müstəqil müəssisələrdir. DTTL müştərilərə xidmətlər göstərmir. Ətraflı məlumat üçün www.deloitte.com/about səhifəsinə daxil olun.

Deloitte qlobal səviyyədə audit və əminlik, konsaltinq, maliyyə, risk, vergi üzrə məsləhət xidməti və digər əlaqədar xidmətlər göstərən aparıcı markalardandır. 150-dən çox ölkədə və ərazidə xidmətlər göstərən üzv şirkətlər şəbəkəsi Fortune Global 500® üzrə beş şirkətdən dördünə öz xidmətlərini göstərir. Deloitte-un təxminən 415,000 peşəkar mütəxəssisinin təklif etdiyi fərq yaradan həllər haqqında ətraflı məlumat üçün www.deloitte.com səhifəsinə daxil olun.

Bu məlumatda yalnız ümumi informasiya əks olunur və Deloitte Touche Tohmatsu Limited şirkətlərindən, onun üzv şirkətlərindən və ya əlaqədar müəssisələrdən (birlikdə "Deloitte Şəbəkəsi") hər hansı biri bu məlumat vasitəsilə peşəkar məsləhətləşmə və ya xidmətlər təmin etmir. Maliyyə fəaliyyətinizə və ya müəssisənizə təsir göstərə biləcək hər hansı qərarlar qəbul etməzdən və ya tədbirlər görməzdən əvvəl peşəkar mütəxəssis ilə məsləhətləşmək daha məqsədəuyğundur. Deloitte Şəbəkəsinə daxil olan heç bir müəssisə bu məlumata istinad edən hər hansı şəxsin məruz qaldığı zərərə görə məsuliyyət daşımır.

8 Noyabr pr. 25E, Bakı Ağ Şəhər Ofis Binası
Bakı, AZ1025, Azərbaycan Respublikası

© 2023 Deloitte & Touche MMAC. Bütün hüquqlar qorunur.